# Qan içində

Cabir  Novruz

Azərbaycan qan içində üzür bu gün,
Mən özüm də boğuluram qan içində...
Mürəkkəblə yazmayıram sözü bu gün,
Hər kəlməni yoğururam qan içində...

Xəyallarım qan içində uçur mənim,
Şəhidlərim qan içində qucur məni,
Səhərlərim qan içində açır mənim,
Röyalarım, yuxularım qan içində...

Qan içində anaların göz yaşları,
Kirpikləri bəbəkləri qan içində...
Ay mənim qan bacılarım, qardaşlarım,
Göyün, yerin bəbəkləri qan içində...

Qan tökülür neçə yazdı, neçə qışdı,
Sarıyırıq yaramızı durmur yenə...
Düşmən çoxdan qanımıza susamışdı,
Kasa-kasa içir ondan, doymur yenə...

Bu qan bizə çalın-çarpaz sinə dağı,
Dağım, düzüm, göyüm, yerim qan içində...
Qan içində verdik yada Qarabağı
Gərək onu alaq geri qan içində...

Cabir Novruz. Qan içində : şeir // Savalan. – 2015. – 16-22 yanvar.